# İrəvan xanlığının inzibati-ərazi və inzibati idarəçiliyik fəaliyyətinə dair

**Fəridə Abbasova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** farida.abbasova1995@ mail.ru

**Rəyçilər:** t.ü.f.d., dos. E.T. Qarayev,
t.ü.f.d., dos. Ə.B. Ələkbərov

**Açar sözlər:** xanlıq, idarəetmə, inzibati, kənd, polis, tarix, torpaq
**Ключевые слова:** ханство, управление, административно, село, полис, история, земля
**Key words:** khanate, management, administrative, village, police, history, land

Azərbaycanın digər xanlıqlarında olduğu kimi, İrəvan xanlığı da inzibati-ərazi cəhətdən mahallara, mahallar isə kəndlərə bölünürdü. Mahallar bir qayda olaraq xan tərəfindən təyin olunmuş mahal naibləri tərəfindən idarə olunur və onlar iri feodallar arasından təyin edilirdilər. Azərbaycanın digər xanlıqlarından fərqli olaraq İrəvan xanlığında mahal başçıları mirbölük adlanırdılar. Mahallardakı polis, məhkəmə və maliyyə sahələri mirbölüyün nəzarəti altında idi. Bəzi hallarda 3 və ya daha çox mahalın idarə olunması bu işə daha çox səriştəli olan bir mirbölüyə tapşırılırdı. Kəndlərdə hakimiyyət isə ağsaqqal funksiyasını icra edən kəndxuda və məlikin sərəncamında idi. İrəvan xanlığı ərazisində Azərbaycan kəndlərini idarə edən başçıya naib, erməni kəndini idarə edənlərə isə məlik deyilirdi. İrəvan xanlığının şəhər idarəçiliyi sistemində isə naib, qalabəyi, darğa, yüzbaşı, onbaşı və digər məmurlardan ibarət olan idarə orqanları fəaliyyət göstərirdi [3, s. 196, 211-212; 90, s. 448].

Mahal bəyləri üzərinə əsasən inzibati və polis vəzifələrini həyata keçirmək qoyulurdu. Bu vəzifələrə mahallarda asayişin qorunmasına və yolların abad vəziyyətdə saxlanmasına nəzarət etmək, kəndlərdə mübahisəli məsələləri və münaqişələri həll etmək, bu barədə müvafiq qərarlar qəbul etmək daxil idi. Bundan başqa mahal bəyləri yüngül cəzalarla bağlı məhkəmə hökmü də verə bilərdilər [1, s. 153-154].

Hələ XVIII əsrin birinci yarısında Nadir şahın həyata keçirdiyi inzibati-ərazi islahatları nəticəsində İrəvan bölgəsi Körpü, Qırxbulaq, Şörəyel, İğdır, Gərni, Dərəçiçək, Göyçə, Abaran, Şirək mahallarından ibarət olmuşdur. Bu islahatlar nəticəsində bölgənin bəzi tarixi əraziləri ondan qoparılmış və belə vəziyyət müstəqil İrəvan xanlığının yaranmasına qədər davam etmişdi. E.T.Qarayevin öz monoqrafiyasında Osmanlı hakim dairələrinin 1728-ci ildə apardığı siyahıyaalma nəticəsində tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"nə istinadından məlum olur ki, həmin itirilmiş ərazilər Maku, Xinzirək, Vedi, Məzrə, Sürməli, Aralıq, Şərur, Sədərək, Zərzəmin nahiyələrindən ibarət olmuşdur. Məzrə Göyçə mahalının bir hissəsini, Xinzirək Zəngibasar mahalını, İğdır isə Sürməli mahalının bir hissəsini əhatə etmişdi [2, s. 299-300].

İrəvan müstəqil xanlığa çevrildikdən sonra öz tarixi torpaqlarına yiyələnə bilmiş və mahalların sayı baxımından geniş əraziləri əhatə etmişdi [2, s. 300]. İrəvan xanlığının ərazisi əvvəllər inzibati cəhətdən 12 mahaldan ibarət olsa da, sonralar Hüseynqulu xan Qacar daha 3 yeni mahal yaradaraq, mahalların sayını 15-ə çatdırmışdı [1, s. 147]. İ.Şopen öz əsərində "Erməni vilayəti"nin təşkil olunmasından əvvəl İrəvan xanlığının 15 mahaldan – Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçenis, Səədli, Talın, Seyidli-Axsaxlı, Sərdarabad, Körpübasar, Abaran, Dərəçiçək və Göyçə mahallarından ibarət

olduğunu qeyd edir [5, s. 442-446]. Bu mahallar Araz çayının hər iki sahilində yerləşirdi. Daha dəqiq desək, 13 mahal Arazın sol sahilində, 2 mahal isə sağ sahilində qərarlaşmışdı. Mahallar çaylar və bu çaylardan çəkilmiş süni arxlar vasitəsilə bir-birindən ayrılırdı [3, s. 198]. Bu mahallarda 831 kənd qeydə alınmışdır [2, s. 300].

E.T.Qarayev öz monoqrafiyasında belə bir nəticəyə gəlir ki, xanlıq yaranan ərəfədə İrəvan bölgəsi 9 mahaldan, XVIII əsrin 60-cı illərindən 1802-ci ilə qədər 16 mahaldan, 1802-1805-ci illərdə 15 mahaldan, 1805-1810-cu illərdə 14 mahaldan, 1810-1827-ci illərdə 16 mahaldan, "Erməni vilayəti"nin yaranması ilə əyalətə çevrilmiş İrəvan bölgəsi XVIII əsrin 30-cu illərinin ortalarına qədər bir şəhər və 17 mahaldan ibarət olmuşdur [2, s. 308]. Məlum olur ki, İ.Şopenin verdiyi məlumatlar 1802-1805-ci illərə aiddir.

İrəvan xanlığının inzibati-ərazi bölgüsünə paytaxt İrəvan şəhəri də daxil idi. Bu şəhərin iri və möhkəm qalaya malik olması onu məşhurlaşdırmışdı. Şəhərin ərazisi 28 kv. Verstə bərabər idi. İrəvan bütün xanlığın ərazisində yeganə şəhər idi və heç bir mahala tabe olmayaraq müstəqil inzibati-ərazi hesab olunurdu. İrəvan şəhəri Osmanlı imperiyası, Kartli-Kaxetiya çarlığı, Qacar İranına və Azərbaycanın müxtəlif xanlıqlarına aparan karvan yollarının birləşdiyi ərazidə yerləşdiyindən ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi inkişaf edirdi [3, s. 203-205]. İrəvan şəhərini xan tərəfindən təyin olunan kələntər və qalabəyi idarə edirdi ki, onların da tabeçiliyində yasovullar, onbaşılar və fərraşlar fəaliyyət göstərirdilər [1, s. 156].

İrəvan şəhəri şimaldan Qırxbulaq, qərbdən və cənubdan Zəngibasar mahalları ilə, şərqdən isə onu Körpübasar mahalından ayıran Oxçuberd dağının daşlı pillələri ilə həmsərhəd idi [1, s. 143-146]. XVIII əsrin birinci yarısında İrəvan şəhəri öz daxili quruluşuna görə "Köhnə şəhər", "Dəmirbulaq", "Dərəkənd" və "Təpəbaşı" adlanan məhəllələrdən ibarət olsa da, müstəqil xanlığın mərkəzi olduqdan sonra şəhərin quruluşunda dəyişiklik baş vermişdi. İrəvan şəhəri 3 məhəlləyə - "Şəhər", "Təpəbaşı" və "Dəmirbulaq" məhəllələrinə bölünmüşdü. Bu, onunla əlaqədar idi ki, "Köhnə şəhər" məhəlləsi "Şəhər" məhəlləsi adlandırılmış, "Dərəkənd" isə "Təpəbaşı" məhəlləsinə birləşdirilmişdi. Məhəllələrdən ən böyüyü olan "Şəhər" məhəlləsi (köhnə şəhər) İrəvanın şimal-şərq, "Təpəbaşı" məhəlləsi qərb, "Dəmirbulaq" məhəlləsi isə cənub-şərq hissəsində yerləşirdi [2, s. 310].

İrəvan xanlığının ərazisi Ararat düzənliyini, Göycə gölünün cənub və şərq tərəflərini, Araz çayının qərbini əhatə edirdi. Bu xanlıq Gəncə, Qarabağ, Naxçıvan, Maku xanlıqları, Qazax sulatnlığı, Osmanlı imperiyası və Gürcüstanla həmsərhəd idi [4, s. 87]. Daha dəqiq desək, İrəvan xanlığı məhsuldar Ağrı vadisini öz hüdudları daxilinə almaqla şimaldan Şörəyel, Pəmbək, Şəmşəddil, Qazax sultanlıqları, şimal-şərqdən Gəncə, şərqdən Qarabağ və Naxçıvan xanlıqları, cənubdan Xoy xanlığı, Maku xanlığı və Bayazid paşalığı, qərbdən Kağızman, və Qars paşalıqları ilə həmsərhəd idi. Ümumilikdə İrəvan xanlığının ərazisi 11.000 kv. Verstə bərabər idi [1, s. 143].

Hüseynəli xanın hakimiyyəti illərində (1762-1783) İrəvan xanlığının sərhədləri daha da genişlənərək Şörəyel bölgəsini də əhatə etmişdi. Lakin 1779-cu ildə gürcü knyazı II İrakli Şörəyeli işğal etmiş və onun hakimi Sultan Qəhrəmanı özünə tabe etmişdi. 1801-ci ilin əvvəlində irəvanlı Məhəmməd xan Şörəyeli yenidən ələ keçirmiş və Şörəyel 1805-ci ilin yazında Rusiya tərəfindən işğal edilənə qədər İrəvan xanlığının tərkibində qalmışdı. Bundan başqa 1795-ci ildə Ağa Məhəmməd xan Qacar İrəvan xanlığını özündən asılı vəziyyətə saldıqdan sonra Pəmbək, Qazax və Borçalını xüsusi fərmanla irəvanlı Məhəmməd xana versə də, 1796-cı ildə V.Zubovun başçılığı ilə Rusiya qoşunlarının Azərbaycana hücum etməsi ilə bağlı olaraq İrəvan xanı Məhəmməd xan Pəmbək, Qazax və Borçalını öz hakimiyyəti altında saxlaya bilməmişdi [1, s. 142-143].

Azərbaycanın digər xanlıqlarında olduğu kimi, İrəvan xanlığında da idarəçilik işi monarxiya sistemi əsasında həyata keçirilirdi [1, s. 154]. İrəvan xanlığında ali hakimiyyət xana və ya sərdara məxsus idi. Xanlığın hakimiyyəti irsi olsa da, burada tez-tez hakimiyyət dəyişikliyi olduğundan xanların bəzisi Qacar şahları tərəfindən təyin olunmuşdu. Bütün qanunvericilik, icra hakimiyyəti və məhkəmə sistemi bilavasitə sərdarın sərəncamında idi. Ölkənin daxili və xarici məsələləri ilə bağlı olan bütün işlərin həyata keçirilməsi də onun iradəsindən asılı idi [3, s. 208]. Xandan sonra xanlıqda ikinci ən mühüm şəxs mülki idarəçilik aparatının başçısı və xanın ən yaxın məsləhətçisi olan vəzir sayılırdı [3, s. 210].

İrəvan xanının yanında fəaliyyət göstərən "Divan" məsləhətçi şura sayılırdı və burada dövlət əhəmiyyətli məsələlər müzakirə olunurdu. Divanda ən yüksək vəzifəni vəzir, xanın yaxın adamları və hər birinin müəyyən fəaliyyət sahəsi olan bir neçə mirzə və din xadimlərindən şeyx-ül-islam tuturdu. Divanın başçısı divanbəyi hesab olunur və xanın ən yaxın adamlarından və ya nüfuzlu ruhanilərdən təyin olunurdu. Müəyyən məsələlərin həll olunmasında divanbəyilərin verdiyi qərarların həlledici rolu olurdu [3, s. 209-210].

İrəvan xanlığında dövlət idarəçiliyi sistemi sərdarın saray təsərrüfatı, hərbi sahə, maliyyə bölməsi, maliyyə məsələsi ilə sıx bağlı olan icraedici işlər sahələrindən ibarət idi. Bundan başqa sarayda xəzinəyə başçılıq edən xəzinədar, pul paylayan və xəzinənin mədaxil və məxaric işlərinə nəzarət edən sandıqdarağası, məhsul ambarlarına nəzarət edən ambardarağası, saray mühafizəçisinin başçısı qoruqçubaşı, xanın baş mehtəri əmiraxur və digər bu kimi məmurlar ordusu da fəaliyyət göstərirdi. Mülki idarəçilik sistemində kargüzarlıq işlərinə mirzələr ordusu baxırdı [3, s. 210-211].

**Məqalənin aktuallığı.** Məqalə Azərbaycanın digər xanlıqları kimi, İrəvan xanlığının da inzibati-ərazi cəhətdən öyrənilməsi və xanlıqda idarəetmənin təşkili məsələlərinin nəzərdən keçirilməsi baxımından aktual əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə İrəvan xanlığını əhatə edən mahal və kəndlərdə hakimiyyət–idarəetmə məsələləri araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Azərbaycan, 2009.
2. Qarayev E.T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu – XIX yüzilliyin ortalarında). Bakı: Mütərcim, 2016.
3. Qarayev E.T. İrəvan xanlığı (1747-1828). Bakı: Avropa, 2010.
4. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 2006, 148 s.
5. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СП-б: В типографии Императорской Академии Наук, 1852.

**Ф. Аббасова**

## Об административно-территориальной и административно-управленческое деятельности Ираванского ханство

## Резюме

В статье затронуто к административно-территориальной и административно-управленческой деятельности Ираванского ханство. А также рассказывается о реформах Надир шаха проводимом в этом направлении.

**F. Abbasova**

## Administrative of the Iravan khanate and about to administrative governance

## Summary

Administrative of the Iravan khanate in the article and is touched to problem of administrative governance. Time of authority of the rare shah is talked from reforms at the same time carried out in this direction.

**Redaksiyaya daxil olub:** 04.12.2018